YENİ TƏFƏKKÜR
Yüksəlişə doğru yol!

# İLHAM ƏLİYEV - ZƏFƏRİN, QÜRURUN LİDERİ



*Sevinc Mələk*

**Aşağıdakı misralarım 65 yaşlı Prezidentimə hədsiz məhəbbətimin nişanəsidir**

Rəhbər olan gündən şəfəq saçıldı,
Ədalət bayrağı burda ucaldı.
Dövlətin taleyi səndən güc aldı,
Sən qürurumuzsan, İlham Əliyev!

Əlində qələmdi, sinəndə vicdan,
Canında qeyrətdir, gözündə iman.
Sən oldun tarixdə şəfəqli zaman,
Şanlı yolumuzsan, İlham Əliyev!

Mənim Prezidentim uca bir dağdır,
Onunla millətin damağı çağdır.
Qarabağ qayıtdı, üzümüz ağdır,
Zəfər yolumuzsan, İlham Əliyev!

Ədalətli yoldan çıxmadın heç vaxt,
Xalqına dayaqdır ucalan bayraq.
Yaddaşlarda əbədi yaşayacaq,
Vuran qolumuzsan, İlham Əliyev!

Siyasət yolunda sınmadın heç vaxt,
Dünya arenada qalib olaraq,
Yaddaşlarda əbədi iz qoyaraq,
Bələdçimiz oldun, İlham Əliyev!

Azərbaycan günü-gündən ucalır,
Millətimiz bu torpaqdan güc alır.
Biz gəncləşirik, tarix qocalır,
Sən tarix yazansan, İlham Əliyev!